**AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ**

**BAKI DÖVLƏT UNİVERSİTETİ**

**ÜMUMİ DİLÇİLİK KAFEDRASI**

# FONOLOGİYA

## KURSUNUN PROQRAMI

**Magistratura təhsil pilləsi**

**İxtisas: 060201 "Dilşünaslıq (Ümumi dilçilik)"**

**BAKI – 2017**

**AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ**

**BAKI DÖVLƏT UNİVERSİTETİ**

**ÜMUMİ DİLÇİLİK KAFEDRASI**

# FONOLOGİYA

## KURSUNUN PROQRAMI

**Magistratura təhsil pilləsi**

**İxtisas: 060201 “Dilşünaslıq (Ümumi dilçilik)”**

***Filologiya fakültəsi Elmi Şurasının***
***11 aprel 2017-ci il tarixli iclasının***
***(5 saylı protokol)qərarı ilə çap olunur***

**BAKI – 2017**

**Tərtib edən:** **Ş.V.Qasımova**
**filologiya elmləri namizədi, dosent**

**F.N.Mehdiyev**

**baş müəllim**

**Elmi redaktor:** **Ə.Ə.Rəcəbli**
**filologiya elmləri doktoru, professor**

**Rəyçilər:** **Z.M.Əliyeva**

**AMEA-nın Nəsimi adına Dilçilik institutu**
**Nəzəri dilçilik şöbəsinin baş elmi işçisi**
**filologiya üzrə elmlər doktoru**

**M.T.Məmmədov**

**BDU-nun Ümumi dilçilik kafedrasının**
**dosent əvəzi, filologiya üzrə fəlsəfə doktoru**

## İzahat vərəqəsi
## Fənnin məqsəd və vəzifələri

Məqsəd, ümumi dilçilik kafedrasının I kurs bölməsində tədris olunan fonologiya fənninin fonetika fənnindən oxşar və fərqli xüsusiyyətlərini öyrənməkdir.

Fonetika dili bir fiziki hadisə kimi öyrənirsə, fonologiya onu ictimai bir hadisə kimi tədqiq edir. Müstəqil bir elm sahəsi olan fonologiya müxtəlif dilçilik məktəbləri tərəfindən müxtəlif cür qiymətləndirilib izah olunur. Bu da fonemin mürəkkəb təbiətə malik dil vahidi olduğunu nümayiş etdirir. Fonetika ilə fonologiyanın fərqləndirilməsi F.de Sössür tərəfindən irəli sürülən nitq-dil fərqlənməsinə əsaslanır.

Fənnin tədrisi prosesində magistrantlar bilməlidirlər:

- Müxtəlif xalqlar, müasir xalqlar və onların yerləşdiyi ərazilər
- Ümumi dilçiliyin fonetika və fonologiya sahəsindəki tədqiqat tarixi
- Fonologiyanın ilk inkişaf dövrləri
- Dillərin fonoloji quruluşu
- Abidələrdə qalmış fonoloji ünsürlər
- Dillərin bir-biri ilə oxşar və fərqli cəhətləri, əlaqələri

Bacarmalıdır:

- Fənnin tarixi inkişafı ilə əlaqədar tədqiqatlar aparmış ölkə və ya xalq

- Qədim və müasir dövrdə fonologiya üzrə dillərin səciyyəvi xüsusiyyətlərini müəyyənləşdirmək
- Dillərin fonoloji tədqiqat tarixinin əsas mərhələlərini müəyyənləşdirmək

Yiyələnməlidir:

- Tədqiq olunan müasir dilləri və dialektləri müxtəlif dilçilik metodları ilə araşdırmaq

Fənnin tədrisi üsulları: Fonologiya fənni mühazirə və məşğələ şəklində tədrtis olunur.

Fənnin tədris planında yeri. Filologiya fakültəsinin magistratura pilləsində 060201 "Dilşünaslıq (Ümumi dilçilik)" ixtisasının İFM-2796 fonologiya fənni üzrə 15 saat mühazirə və 15 saat məşğələ olmaqla cəmi 30 saat həcmində tədris olunur.

Fonologiya fənni müasir və qədim dillərin tədqiq edilmiş yazılı abidələrini öyrənir və oxuyur.

Bu sahə üzrə hazırda bir çox metodlar təsviri metod, müqayisəli metod, tipoloji metod, coğrafi metod, struktur dilçilik metodu, sosioloji metod və s.

**Fənnə ayrılan illik saatın mövzular üzrə cədvəli:**

| № | Mövzuların adı | müh | məş |
|---|---|---|---|
| 1 | Fonologiyanın tarixi (qədim dövr). Hind dilçiliyi, antik dövr və ərəb dilçiliyi | 2 | 2 |
| 2 | XVII-XVIII əsrlərdə fonetika (intibah dövrü) | 2 | 2 |
| 3 | XIX əsrdə müqayisəli-tarixi dilçilikdə fonetika məsələləri | 2 | 2 |
| 4 | Gənc qrammatiklərin səs qanunları və analogiya haqqında təlimləri | 2 | 2 |
| 5 | Moskva, Leninqrad və Qazan fonoloji məktəblərində fonemin tədqiqi | 2 | 2 |
| 6 | Sosioloji dilçilikdə fonologiya və onun tədqiqi | 2 | 2 |
| 7 | Struktur dilçilikdə fonemin tədqiqi | 2 | 2 |
| 8 | Azərbaycan dilinin fonetik quruluşu dilimizin tarixi inkişafının məhsulu kimi | 1 | 1 |

## Ön söz

Fonetika anlayışı, onun öyrənilməsi hələ eradan əvvəl hind, çin, yunan dilçiliyindən və eramazın VII-VIII əsrlərində isə ərəb dilçiliyindən məlumdur. Hələ 1569-cu illərdən başlayaraq bu sahədə tədqiqatlar aparılmışdır. Fonemin əsaslı şəkildə öyrənilməsi 1875-ci ildən sonrakı dövrlərə aiddir və İ.A.Boduen de Kurtenenin adı ilə bağlıdır.

Nitq hissələrini, söz və morfemlərin səs cildinin fərqləndirmə vasitəsi kimi fonemin öyrənilməsi bir əsrə yaxın tədqiqat tarixinə malik olsa da, fonem dilçilikdə hələ də mübahisəli problemlərdən biri kimi qalır.

Müxtəlif xalqların dilçiliyində fonem çoxsaylı tədqiqatçılar tərəfindən bir-birindən fərqlənən müxtəlif mülahizələrə, mübahisələrə

səbəb olmuşdur. Bütün bunlar fonemin mürəkkəb təbiətə xas olan xüsusiyyətlərini əks etdirir. Müasir struktur dilçilik məktəbləri də fonem nəzəriyyəsi əsasında formalaşmışdır. Dünya dillərində 100-dən çox olmayan danışıq səsinin ecazkar potensial qüvvəyə malik olmaı özü fonemin müərəkkəb təbiətə xas olmasına sübutdur. Fonemin öyrənilməsində Avropa və xarici dilçilərin tədqiqatları ilə yanaşı Azərbaycan dilçiliyində də bir sıra müvəffəqiyyətlər əldə edilmişdir. Xarici dilçilikdə əsaslı şəkildə onun tədqiqi İ.A.Boduen de Kurtenenin adı ilə bağlıdırsa, Azərbaycan dilçiliyində bu hadisənin VII-IX əsrlər arasında ümumxalq dili halında formalaşması, XIII əsrdə ədəbi dilin yaranması, XIX əsrdən başlayaraq onun tam milli dilə çevrilməsi müşahidə olunur. Tədqiqatçılar qeyd edirlər ki, Azərbaycan dilinin fonetik vahidləri və hadisələri müxtəlif inkişaf yolları keçmişdir. Xarici tədqiqatçıların qeyd edirlər ki, Azərbaycan dilinin fonetik vahidləri və hadisələri müxtəlif inkişaf yolları keçmişdir. Xarici tədqiqatçıların çoxsaylı əsərləri ilə yanaşı bu sahədə Azərbaycan dilçiliyində Ə.Dəmirçizadənin “Müasir Azərbaycan dili” (fonetika), “Azərbaycan ədəbi dilinin tarixi”, “Ədəbi dilin inkişaf yolları”, A.A.Axundovun “Azərbaycan dilinin fonetikası”, “Azərbaycan dilinin tarixi fonetikası”, T.Hacıyevin “Azərbaycan ədəbi dili tarixi” və s. əsərlər ən mötəbər mənbə hesab oluna bilər.

## I. Fonologiyanın tarixi
## (qədim dövr) - 2 saat

1. Eradan əvvəl yaranmış hind fonetikası – şikşa, Panininin qrammatikasında fonetikanın qoyuluşu, kombinator səs dəyişmələri, vurğu və intonasiya haqqında. Vararuçinin fonetika, səsin fonetik dəyişmələri haqqında təlimi, səslərin sait, samit və frikatlar kimi bölgüsü, fonem anlayışı, fonem və danışıq səsi.
2. Eradan əvvəl III əsrdə, qədim Çində fonetika məsələsi.
3. Antik dövrdə Platonun, Aristotelin, stoiklərin fonetika sahəsindəki mülahizələri.
4. İskəndəriyyə dilçilik məktəbində fonetika, səs dəyişmələrinin müxtəlif tiplərinin tədqiqi haqqında.
5. Ərəb dilçiliyində (VII-VIII əsrlər) Bəasrə və Kufə məktəblərində danışıq səslərinin təsnifi, fonetikanın ritmika ilə əlaqəsi, söz tərkibinin fonetik təhlili və təsnifi, daxili fleksiyanın tədqiqi. Səslərin təsvirində fizioloji və akustik prinsiplər. Əmələgəlmə yerinə görə danışıq səslərinin təsnifi.

## II. XVII – XVIII əsrlərdə fonetika (İntibah dövrü). "Por-Royal" qrammatikası"nda fonetika məsələləri, sait və samitlərin təsnifi, vurğu, heca, yazı məsələləri. XIX əsrdə müqayisəli-tarixi dilçilikdə fonetika məsələləri – 2 saat

I. A.A.Vostokovun "Slavyan dili haqqında tədqiqat" əsərində (1820) dillərin qohumluğunu sübutetmə prinsipi kimi fonetikanın rolu məsələsi. Y.Bredsdorfun əsərlərində samitlərin ilkin dəyişməsi fikirləri, bu dövrdə fonetikanın müqayisəli planda tədqiqi. Rask və Qrimmin german dillərində samitlərin ilkin çevrilməsi qanunu. Bu qanunlar əsasında dilçiliyin dəqiq elmə çevrilməsi. German dillərində ablaut hadisəsi və saitlərin dəyişməsi.

F.Boppun dillərin qohumluğunu sübutetmə prinsipləri, onun aqqlütinasiya nəzəriyyəsinin əsası. Frank Boppun söz kökü nəzəriyyəsi əsasında dillərin təsnifi.

XIX əsrin ortalarında Kursiusun yunan dilinin tədqiqinə həsr edilmiş səs dəyişmələri və onların səbəbləri nəzəriyyəsi. A.Şleyxerin hind-Avropa ulu dilinin rekonstruksiyası nəzəriyyəsində səs dəyişmələri nəzəriyyəsi və onun dilçiliyin inkişafına təsiri. A.Şlayxerin sözdə üç tərkib hissə anlayışı. A.F.Pott. Onun qohum dillərdə səs uyğunluqları nəzəriyyəsi.

XIX əsrin ortalarında rus dilçiliyində İ.İ.Sreznevski tərəfindən X-XIV əsr yazılı abidələrinin öyrənilməsi. Qədim rus dili fonetik xüsusiyyətlərinin qədim slavyan dillərinin tədqiqində tətbiqi.

F.İ.Buslayevin müqayisəli-tarixi tədqiqatlarında səs uyğunluqları məsələsinə münasibəti.

## III. Müqayisəli-tarixi tədqiqatların prinsipləri və metodikası məsələsində fonologiyaya münasibət – 3 saat

Fonetik qanunların iki dilin və ya çoxlu dilin ifadə planında vəziyyəti səciyyələndirə bilməsi.

Fonetik ünsürlərin dilin ən qədim ünsürləri olub ümumi mənbədən törəməsi. Fonetik qanunlar etimoloji tədqiqatda əsas meyar kimi. Fonetik qanunların qrammatika üçün əhəmiyyəti. Onun morfem və şəkilçilərinin müəyyənləşdirilməsində əhəmiyyəti rolu. Fonetik qanunlar etimoloji tədqiqatlarda əsas meyar kimi.

Gənc qrammatiklərin səs qanunları və analogiya haqqında təlimi. Gənc qrammatiklər tərəfindən yeni metodologiyaya əsasən canlı dillərin öyrənilməsinin ön plana çəkilməsi, tədqiqatda xalq danışıq dilinə üstünlük verilməsi, səs qanunları və analogiyaya ciddi riayət edilməsi nəticəsi kimi yeni tədqiqat metodunun yaranması. Səs qanunlarının irəli sürdüyü prinsiplər. “Spontan”

səs dəyişmələri, əlaqəli və mövqeli səs dəyişmələri. Səs qanunlarının gənc qrammatiklər tərəfindən səciyyələndirilməsi. Bruqman və Delbrük tərəfindən hind-Avropa ulu dilində səslərin miqdarının müəyyənləşdirilməsi, sait sisteminin müəyyənləşdirilməsi, Bruqman tərəfindənulu dildə diftonqların kəşfi. Dilçiliyin dəqiq elmə, mühüm fənnə çevrilməsində gənc qrammatiklərin fəaliyyəti. Dilin inkişafında xarici və daxili faktorların fəaliyyəti.

## IV. F.F.Fortunatovun hind-Avropa dillərinin müqayisəli tarixi fonetikası sahəsində irəli sürdüyü qanunlar - 2 saat

F.Fortunatovun hind-Avropa ulu dilinin səs tərkibi haqqında. Mülahizələri onların konkret səslənməsi haqqındakı fikirləri.

Fonem konsepsiyasının daha düzgün müəyyənləşdirilməsində Moskva fonoloji məktəbinin nümayəndələri. A.A.Reformatskinin "fonem" və "danışıq səsi" haqqındakı fikirləri. P.S.Kuznetsovun fonemin müəyyənləşdirilməsində əsas vahid kimi morfemdən çıxışı.

Leninqrad fonoloji məktəbinin nümayəndələrindən başda L.V.Şerba olmaqla L.R.Zinder, M.İ.Matuseviç və b. fikirləri. Şerbanın "Fransız dilinin fonetikası" əsəri. Fonem və onun

çalarları. L.R.Zinderin “Fonemlər və çalarlıqlar”, “Fonemin reallığı” və s. əsərlərində fonemin şərhi.

Qazan dilçilik məktəbində fonemin tədqiqi. Boduen de Kutenenin “Rezyan şivələri fonetikasından təcrübələr” əsəri. Onun yaradıcılığında fonem nəzəriyyəsi, fonetik alternasiya nəzəriyyəsi. Əlaqəli asılılıqlarda kogerensiya və divergensiya terminlər anlayışı. Boduen de Kurtene tərəfindən fonemin təsəvvürü və eləcə də “Gənc qrammatiklər”in fonologiya nəzəriyyəsində analogiya hadisəsinin şişirdilməsinin tənqidi. Fonemin digər fonemdən fərqləndirilməsi. Alternasiya nəzəriyyəsi anlayışı. Bu nəzəriyyənin morfologiyaya münasibəti. Polyak və slavyan dilləri üçün səciyyəvi olan dil hadisəsinin təhlili. XX əsr dilçiliyinin inkişafında Boduen de Kurtenenin rolu. Fonoloji və antropomorfik təhlil anlayışı.

## V. Sosioloji dilçilikdə fonologiya, onun tərifi – 2 saat

Fonoloji yazı. Fonoloji tiplər, fonemin tərifi, ağız artikulyasiyalarına görə səslərin təsnifi, fonem nitq zəncirində, imploziya və eksploziya, heca bölgüsü və vokal nöqtəsi, diftonqlar və onların yazılışı məsələsi. F.de Sössürün larenqal nəzəriyyəsi, sonant əmsalı təlimi (“Hind-Avropa dillərində saitlərin ilkin sistemi haqqında memuar” əsəri). Uzun saitlərin

diftonqlardan törəməsi nəzəriyyəsi. Bəxiyə sait anlayışı. Sosioloji dilçiliyin nümayəndələrindən Meyenin fonetik dəyişikliklərə, səs dəyişmələrinə sosial baxışı, onun fonetik uyğunluqların müntəzimliyi prinsipi. Səs problemində Ş.Ballinin sosioloji mövqeyi, analogiya haqqında onun fikirləri. M.Qrammonun fonetika, fonetik hadisələr (assimilyasiya, dissimilyasiya) sahəsindəki tədqiqləri. Fransız şeirinin təsirli vasitələri – səslər (sait, samit, qovuşma, qafiyə, ritm və s.) haqqında.

## VI. Strukturalizm məktəbləri. Praqa funksional dilçiliyi – 2 saat

Strukturalizm məktəblərindən olan Praqa funksional dilçiliyində fonologiya problemi. Məktəbin nümayəndələrindən N.S.Trubetskoy, P.O.Yakobson, V.Matezius, B.Havranek və b. tərəfindən fonetika və fonologiyanın fərqləndirilməsi; fonem anlayışında müxalifər və təzad anlayışları. Praqa dilçiliyində fonoloji sistemin sinxron və diaxron fonoloji əsasları. Müxalifətin ekvipolent (müxtəliмənalı), qradual (pilləli), privativ (fərqləndirici əlamətlin mövcudluğu) kimi tiplərinin trubetskoy tərəfindən müəyyənləşdirilməsi. R.O.yakobsonun “Yevraziya dil ittifaqı”, “Fonoloji coğrafiya” əsərlərində müasir tipoloji tədqiqatlar. Yakobson və onun ardıcılları tərəfindən seqment

fonemləri üçün 12 cüt fərləndirici əlamətin müəyyənləşdirilməsi. Trubetskoyun məna fərqləndirmə təlimi onun fonoloji görüşlərinin nüvəsi kimi. Trubetskoyun “Fonologiyanın əsasları” əsərində fonologiyanın tam və sistemli şərhi. Fonem variantları səs qarşılaşmalarının xronoloji sistemliyi, qarşılaşmaların neytrallaşması növləri. Onun “reprezentativ fonologiya” təlimi, tədqiqat predmeti kimi səsin kulminativ, delminativ və distinktiv funksiyası anlayışları. Praqa funksional dilçilik məktəbi. Struktur dilçilik. Morfonologiya dilçilik sahəsinin yaranmasının əsasları. Səs dətişmələrinin tədqiqi səbəbləri. Morfonemin funksiyası.

Qlossematika struktur dilçiliyində fonem problemi ilə əlaqədar fonemin tədqiqi-təhlili məsələsi. Qlossematika struktur dilçilik məktəbinin ən görkəmli nümayəndələri Viqo, Brondal, K.Ulqal, Lui Yelmslev. Bu məktəbin genematika bölməsində ifadə formasının quruluşuna münasibət, ifadə ünsürü kimi genem anlayışı. Dil təhlilində Yelmslevin kommutasiya metodundan istifadə üsulu. Dilin fonoloji vahiidləri ifadə planının fiqurları kimi. Yelmslevin fiqur haqqındakı təlimi. Tipoloji təsvirdə izomorfizm və allomorfizm müəyyənləşdirilməsi.

ABŞ-da ənənəvi olaraq fonetikanın araşdırılan sahələri. Amerika dilçiliyində fonetik transkripsiyanın iki növü. Fonologiya və fonetikanın fərqləndirilməsi. E.Səpirin XX əsrin 20-ci illərində

fonoloji konsepsiyası. L.Blumfildin antimentalist konsepsiyası. Amerika struktur dilçiliyində fonoloji konsepsiyanın mərkəzi vahidi. Bununla əlaqədar tədqiqatda sintaktik məlumatların və məna meyarının qəbul edilməməsi. Dilin bünövrə tezisi anlayışının müəllifi. Amerika dilçilyinin metadilində “allofon” termini. Z.C.Harrisin və K.İ.Paykın fonemin müəyyənləşdirilməsi üsulları. Fonemin müəyyənləşməsində allofonların çarpazlaşması meyarı. Amerika dilçiliyində hindu dillərinin fonoloji oxşarlıqlarının tədqiqi. Tədqiqatda fonemlərin bir-biri ilə kontrastda və ya qarşılaşdırmada olması. Amerika deskriptiv dilçiliyində fonemin mənaya malik olmaması fikri. Fonoloji səviyyənin fonetik səviyyədən fərqli olmaması fikri. Deskriptiv dilçilik məktəbinin Kopenhagen dilçilik məktəbinə yaxınlığı. Amerika deskriptiv dilçilyinin fonoloji təhlilin nəticələri. Amerika struktur dilçliyinin fonoloji konsepsiyası, danışıq səslərinin bölgüsü. Prosoidik hadisələrin ilk tədqiqatçısı. Prosoidik hadisələrin tədqiqatı, nümayəndələri. Seqment, superseqment anlayışları. Fonem və prosodemlərin fərqləndirilməsi. Prosodemlərin fərqləndirilməsinin arasında ayrı-ayrı məktəblərin mövqeyi, fikir müxtəlifliyi. Ç.Hoknetin morfonetika və fonologiyaya dair mülahizələri. C.Treiçerin aralıq səviyyə anlayışı. Morfonoloji təhlilin metodikası. M.S.Rodişin fonem

əvəzlənmələrinin araşdırılması, V.Blokuneyni bir morfemin alternat nisbi fonemlərini əvəzlənməsi anlayışı. Morfonemin aşkarlanması proseduru. Morfonemin səciyyəsi. Deskriptiv dilçilikdə dil vahidinin mövqeyi. Amerika struktur dilçiliyində diaxron fonologiyaya münasibət. Hindu dilləri qrupunun ulu dilinin fonoloji sistemlərinin bərpası. Tədqiqatın baş verdiyi dövr və nümayəndəsi. Amerika larinqalistikası anlayışı xüsusiyyəti. Amerika struktur dilçiliyində ən mühüm metod kimi modelləşdirmənin qəbul edilməsi. Refonemləndirmə anlayışı. 1939-cu ildə M.Svodeş və K.F.Vögel tərəfindən irəli sürülmüş bazisli anlayışla patalel “patetnsiz” fonoloji model və s. Son dövrlərdə N.S.Trubetskoyun və Ç.Hokketin əsərlərində müxtəlif dillərin fonemləri və fonoloji sistemlərinin qarşılaşdırılması. Fonemin ikili anlamı, dildə mövcud olan hansısa reallıq şəklində fonem və dilçliyin yaratdığı elmi fiksiya şəklində fonem.

Fransız funksional dilçiliyinin nümayəndəsi A.Martinenin “Fonologiya funksional fonetika kimi” əsəri, “Fonetik dəyişikliklərdə qənaət prinsipi” əsəri. Fonologiya sahəsində işlədilən “kontrastiv funksiya” termini anlayışı. Arxifonem anlayışı, ekspressiv fonoloji funksiya. Bu prinsipin əsasında meydana gələn fonetik dəyişmələr (səslər, hecalar, ixtisarlar, abbreviaturlar, substantivləşmə, ellipsis və s. hadisələr). Fransız

funksional dilçilik məktəbi. Fransız fonoloji dilçiliyində fonemin funksiyaları anlayışı. Fransız funksional dilçiliyinin fonemin funksiyası nəzəriyyəsinə əlavə etdikləri yeni əlamətlər.

## VII. Azərbaycan dilinin fonetik quruluşu dilimizin tarixi inkişafının məhsulu kimi – 2 saat

Ədəbi dilin inkişafında iki dövr. Azərbaycan dilçiliyi və Azərbaycan sovet dilçiliyi. 1) Köhnə Azərbaycan dili, 2) Yeni Azərbaycan dili XI-XII yüzilliklərdə Azərbaycan dili rüşeymləri.

Azərbaycan milli ədəbi dilimizin yaranması, onun fonem tərkibinin sabitləşməsi. Bu sahə üzrə məşğul olan tədqiqatçılar.

Azərbaycanda sovet hakimiyyəti qurulduqdan sonra Azərbaycan dilində fonetika məsələləri ilə ilk məşğul olan alim B.Çobanzadənin "Türk dili-evdə texnikum" adlı əsərində fonetikaya dair hansı məsələlərdən bəhs edilməsi. Sait və samitlərin qruplaşdırılması. M.Hüseynzadənin fonetika məsələləri ilə əlaqədar tədqiqatı, saitlərin qrupları. A.Axundovun bölgüsündə saitlərin qrupları. Azərbaycan dilçiliyində ahəng qanununun tədqiqi, növləri. Türk xalqlarının ən qədim yazılı abidəsi olan Göytürk Orxon-Yenisey yazısı abidələrinin dilində təsvir olunan ahəng qanununun müasir türk dilləri ilə müqayisəsi. Alınma sözlərdə ahəng qanunu B.Çobanzadənin,

M.Hüseynzadənin, A.Axundovun, A.Qurbanovun ahəng qanununun növləri ilə əlaqədar fikirləri.

Azərbaycan dilçiliyində Azərbaycan dili fonetikasının 50-ci illərdən sonrakı inkişafı. Q.Ələkbərli tərəfindən fonemin materialist izahı. Ə.Dəmirçizadənin “Müasir Azərbaycan dilinin fonetikası”. A.Axundovun “Müasir Azərbaycan dilinin fonemlər sistemi” əsərində fonemin müəyyənləşdirilməsi üsulları.

Sait və samit fonemlərin müəyyənləşməsində dilçilərdən F.Kazımov və Ə.Mahmudov tərəfindən tədqiq edilmiş üsul. Supraseqment fonemlər. Vurğu fonemi, top fonemi və əlaqələndirmə fonemi. Bu fonemlərin xüsusiyyəti. Bu fonemlərin seqment fonemlərdən fərqi. Vurğunun növləri və onun xüsusiyyətləri. Melodik, tonik, xromatik, musiqili monotonik (təktonlu) və politonik (çoxtonlu) və s. vurğu növləri. Azərbaycan dilində vurğunun morfoloji növləri. Məqsəd və münasibətə görə vurğunun növləri.

İntonasiya. Onun tərkib hissələri. Melodika, ritm, intonasiya, vurğu, temp, tembr və durğu. İntonasiyanın vəzifələri.

Sintaqm haqqında anlayış. Sintaqmın məna növləri. Bitmiş və bitməmiş sintaqmların xüsusiyyətləri. Nəqli cümlə intonasiyası. Əmr cümlə intonasiyası, sual və nida cümlə intonasiyası.

Sadə cümlə və mürəkkəb cümlə intonasiyası. Sadə cümlə intonasiyasının xüsusiyyətləri. Xitablı cümlələrin, həmcins üzvlü cümlələrin, xitablı cümlələrin və ara sözlü cümlələrin intonasiyası və s.

Mürəkkəb cümlə fonetikası. Tabesiz mürəkkəb cümlələrin intonasiyası. Bağlayıcısız tabesiz mürəkkəb cümlələrin intonasiyası. Bağlayıcılı tabesiz mürəkkəb cümlələrin intonasiyası.

Tabeli mürəkkəb cümlələrin intonasiyası. Analitik tipli tabeli mürəkkəb cümlələrin intonasiyası. Sintetik tipli tabeli mürəkkəb cümlələrin intonasiyası. Bir neçə budaq cümləli tabeli mürəkkəb cümlələrdə intonasiya. Bağlayıcısız tabeli mürəkkəb cümlələrin intonasiya xüsusiyyətləri və s.

Z.X.Tağızadənin cümlə intonasiyası haqqındakı tədqiqatları. Ə.Cəfərovun mürəkkəb cümlələrin intonasiya quruluşu. Ə.Əfəndizadənin orfoepiya sahəsindəki tədqiqatları, düzgün tələffüz qaydaları. N.Məmmədovun "Azərbaycan dilinin nəzəri əsasları" kitabında fonetika məsələləri. Pedaqoji dillər İnstitutunda eksperimental laboratoriyanın təşkili. Eksperimentlər əsasında nəşr olunmuş əsərlər. "Eksperimnetal fonetikaya giriş", "Müasir Azərbaycan ədəbi dilinin samitlərinin akustik təhlili" və s. Q.M.Paşayevin "Kərkük dialektinin fonetikası" adlı əsərində

fonetika və fonologiya məsələləri. (Avazlanma (intonasiya), avazlanmanın növləri. Ərəb, fars və Avropa dillərindən Azərbaycan dilinə keçən sözlərdə fonetik dəyişiklik xüsusiyyətləri.

## ƏDƏBİYYAT:


1. Abdullayev Ə., Y.Seyidov, A.Həsənov. Müasir Azərbaycan dili. Sintaksis. Bakı, 1972, s.334-347
2. Adilov M.İ., Verdiyeva Z.N., Ağayeva F.M. İzahlı dilçilik terminləri. Bakı, 1989
3. Ахманова О.С. Словарь лингвистических терминов. М., 1966, с.3-390
4. Axundov A.A. Azərbaycan dilinin fonetikası. Bakı, 1984
5. Axundov A.A. Müasir Azərbaycan dilinin fonemlər sistemi. S.M.Kirov adına ADU-nun Elmi əsərləri, Dil və ədəbiyyat, Bakı, 1968, № 2
6. Axundov A.A. Ümumi dilçilik. Bakı, 1979
7. Амирова Т.А., Ольховников Б.А., Рождественский Ю.В. Очерки по истории лингвистики. М., 1975, 486 с.
8. Boduen de Kurtene. Rezyan şivələri fonetikasından təcrübələr.
9. F.de Sössür. Ümumi dilçilik kursu. Bakı, 2003
10. Dəmirçizadə Ə. Müasir Azərbaycan dili (fonetika). Bakı, 1974
11. Dəmirçizadə Ə. Müasir Azərbaycan dili. I hissə. Bakı, 1972, s.151
12. Ələkbərli Q.H. Marksist-leninçi idrak nəzəriyyəsi əsasında fonem problemi. Namizədlik dissertasiyası, 1953
13. Лоя Я.В. История лингвистических учений. М., 1968
14. Mehdiyev N. Azərbaycan dilində əmr intonasiyasının eksperimental tədqiqi, 89 s.

15. Məmmədov N., Axundov A. Dilçiliyə giriş. Bakı, 1980
16. Реформатский А.А. Введение в языковедение. М., 1967
17. Rəcəbov Ə.Ə.Dilçilik tarixi. Bakı, 1987
18. Rəcəbli Ə.Ə. Deskriptiv dilçilikdə fonologiya və qrammatika problemləri. Bakı: Elm və həyat, 2016
19. Соссюр Ф. Труды по общему языкознанию. М., 1977
20. Трубецкой Н.С. Основы фонологии. М., 1960
21. Trubetskoy N.S. Fonologiyanın əsasları. Bakı, 2011
22. Verdiyeva Z., Ağayeva F., Adilov M.İ. Dilçilik problemləri. Bakı, 1982
23. Зиндлер Л.Р. Общая фонетика. М., 1960